Ramiz Məmmədzadə

SALAM OLSUN, TÜRKİYƏ!

**Nə dəhşətli gecə oldu!
Bilən bildi bu fəlakət
Hardan gəldi necə oldu...
Sən türk oğlu,
sən türk qızı!
Allahıma minbir şükür
İtirmədik bəxtimiziş
Həmin gecə
kükrədilər, selləndilər
Meydanlara
Oğul, uşaq
kişi, qadın.
Onlar qızıl bayraq təki
Ucaltdılar türkün adın.
Dalğa-dalğa
Gurladılar, çoxaldılar
Sıx durdular.
”setoların” niyyətini
Tapdadılar, uçurtdular
Həmin gecə
evlərindən
Güllə kimi atıldılar,
tələsdilər...
Onlar tankın arxasınca
düşmədilər.
Tüfənglərdən, topdan güclü
yalın əllə
Tankın yolunu kəsdilər.
Həmin gecə
dəniz coşdu,
dağlar dindi,
torpaq qalxdı,
Silkələndi.
Ay diksinib Yerə endi
İşıq tutdu
yollarına igidlərin.
Bu hünərin, bu qüdrətin
Kökü dərin!
Qəti kölgə düşə bilməz
Haqqın sönməz çırağına
Göydə bir ulduz qalmadı
Qopub düşdü, düzüldülər
Türkün uca bayrağına
Daş ovular
dəmir sınar
su çəkilər...
Fəqət türkün vəhdətini
pozmaq çətin!
Yaradanın özü durar
Arxasında bu millətin
Çəkil bizim yolumuzdan
qara fələk!
Rədd ol, görək!
Salam sənə ey türk oğlu
ey türk qızı!
İtirmədik bəxtimizi
Sən qadirsən,
sən qalibsən,
Tayın-bərabərin hanı?!
Bir əlindən Ay boylanar,
Bir əlindən
ulduzların kəhkaşanı!
Salam olsun,
Türkiyəm!**

Şüvəlan, 20 iyul 2016-cı il

Ədalət.- 2016.- 28-29 iyul.- S. 4.